## Xidmətin məzmunu :
Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilməsi

## Xidmətin aid olduğu təsnifat :
Kənd təsərrüfatı və aqrar-sənaye

## Xidməti həyata keçirən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı :
- Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilməsi ilə bağlı kənd ərazi komissiyaları
- Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilməsi ilə bağlı rayon komissiyası

## Xidmətin icrasında iştirak edən dövlət orqanının və (və ya) onun struktur bölməsinin adı :
Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi

## Xidmətin hüquqi əsası :
- "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli 1907 nömrəli Sərəncamı;

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 15 fevral tarixli 32 nömrəli qərarı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilməsi Qaydaları".

## Xidmətin həyata keçirilmə formaları :
Xidmət yerinə gəlməklə müraciət və nəticənin kağız daşıyıcısında təqdim olunması

## Xidmətin həyata keçirilməsi və nəticəsi proseduru barədə məlumatlandırma forması :
- Poçt xidməti vasitəsilə məlumatlandırma
- Telefon vasitəsilə məlumatlandırma

## Xidmətin həyata keçirilməsinin nəticəsi :
İcra Hakimiyyəti Başçısı tərəfindən icmal siyahıların təsdiqi

## Xidmət istifadəçisi barədə məlumat :
- Dövlət orqanları

- Fiziki şəxslər
- Hüquqi şəxslər
- Yerli özünüidarəetmə orqanları

## Xidmətin həyata keçirilməsi müddəti, Dövlət rüsumu, Xidmət haqqı, Ödənişin hüquqi əsası :

**Müddət (Məbləğ) :** 10 gün

**Ödənişsiz :** Xidmət ödənişsiz həyata keçirilir

## Xidmətin həyata keçirilməsi üçün müraciətlərin qəbulunun vaxtı və müddəti :

Bazar ertəsi - Cümə günləri 09:00-18:00 (Nahar fasiləsi 13:00-14:00)

## Xidmətin göstərilmə yeri :

Şəki Şəhər İcra Hakimiyyəti Başçısının kənd, qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndələrinin fəaliyyət göstərdiyi bina

## Xidmətin həyata keçirilməsinin dayandırılması və ya ondan imtina edilməsinin hüquqi əsasları :

Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına görə dövlət büdcəsinin vəsaiti hesabına yardım verilməsi Qaydaları"nın 2.5-ci bəndində göstərilən sənədlər tam təqdim edilmədikdə və 3.1-ci bənddə göstərilən vaxtdan (hər il mayın 25-dək) gec sənəd təqdim edildikdə.

## Xidmətin həyata keçirilməsi üçün tələb olunan sənədlər və onların təqdimedilmə forması :

**Tələb olunan sənədin adı**
- Tələb olunan sənədin təqdimedilmə forması

**Hüquqi şəxslərin möhürlə və onların səlahiyyətli nümayəndələrinin imzası ilə təsdiq edilmiş bank rekvizitləri**
- Kağız daşıyıcıda

**Fiziki şəxslər üçün şəxsiyyət vəsiqəsinin, hüquqi şəxslər üçün VÖEN-in surəti**
- Kağız daşıyıcıda

**Torpaq sahəsi üzərində istifadə hüququnu təsdiq edən sənədin surəti**
- Kağız daşıyıcıda

**Torpaq sahəsinin planı və ölçüsünün surəti**

- Kağız daşıyıcıda

**Torpaq sahəsi üzərində icarə hüququnu təsdiq edən sənədin surəti**
- Kağız daşıyıcıda

**Torpaq sahəsi üzərində mülkiyyət hüququnu təsdiq edən sənədin surəti**
- Kağız daşıyıcıda

**Ərizə**
- Kağız daşıyıcıda

## Xidmətin həyata keçirilməsi üçün inzibati prosedurlar :
- Yaz tarla işləri (payızlıq əkinlər də nəzərə alınmaqla) başa çatdıqdan sonra istehsalçı becərdiyi hər hektar əkin sahəsinə və çoxillik əkmələrə sərf etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik səpininə görə dövlət büdcəsinin vəsaiti hesabına verilən yardımı almaq üçün bu Qaydaların 1 nömrəli əlavəsinə uyğun ərizəsini, ərizəyə əlavə edilmiş cədvəl üzrə məlumatı və tələb edilən sənədləri hər il mayın 25-dək kənd ərazi komissiyasına təqdim edir.
- Kənd ərazi komissiyası istehsalçıdan ərizə daxil olduqdan sonra 10 (on) gün müddətində istehsalçının iştirakı ilə əkin sahələrində və çoxillik əkmələrdə aparılmış aqrotexniki işləri yerində yoxlayır və 2 (iki) nüsxədən ibarət baxış aktı tərtib edir. Baxış aktının bir nüsxəsi istehsalçıya verilir.
- Kənd ərazi komissiyası təqdim edilmiş sənədlərə və baxış aktlarına əsasən istehsalçıların siyahısını və onların kənd təsərrüfatı məhsullarının istehsalı üçün istifadə etdikləri əkin sahəsi barədə məlumatları cədvəllər formasında tərtib edir və yardıma sənəd təqdim etmiş hüquqi şəxs olan istehsalçıların bank rekvizitləri ilə birlikdə baxılması üçün iyunun 5-dək rayon (şəhər) kənd təsərrüfatı idarəsinə təqdim edir.
- Rayon (şəhər) kənd təsərrüfatı idarəsi kənd ərazi komissiyalarından daxil olan məlumatları 20 (iyirmi) gün müddətində təhlil edir, dəqiqləşdirilməyə ehtiyac olan məqamları kənd ərazi komissiyaları ilə birlikdə yerində araşdırır, onları təsdiq edir, sonra icmal siyahını cədvəllər formasında tərtib edir.
- Rayon (şəhər) kənd təsərrüfatı idarəsi cədvəllərə uyğun tərtib edilmiş icmal siyahıları iyunun 25-dək Respublika Komissiyasına təqdim edir.
- Respublika Komissiyası müvafiq rayon (şəhər) kənd təsərrüfatı idarələrindən daxil olmuş icmal siyahılara 15 (on beş) gün müddətində baxır və istehsalçılara becərilmiş hər hektar əkin sahəsinə və çoxillik əkmələrə, buğda və çəltik səpininə görə yardımların verilməsi barədə qərar qəbul edir.
- Respublika Komissiyası Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, rayon (şəhər) kənd təsərrüfatı idarələri və müvəkkil banklarla birlikdə istehsalçılara çatacaq vəsaitin müəyyən olunmuş qaydada verilməsini iyulun 20-dən başlayaraq təşkil edir.

## Xidmətlərdən istifadə zamanı yaranan mübahisələrin məhkəməyəqədər (məhkəmədənkənar) həlli imkanları barədə məlumatlar :
- İstifadəçi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 71-ci maddəsinə əsasən inzibati aktdan, inzibati aktın

qəbul edilməsindən imtinadan və yaxud inzibati orqanın hərəkət və və ya hərəkətsizliyindən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına inzibati qaydada şikayət edə bilər.

- Ərizə və ya şikayət "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır. Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78-ci maddəsində müəyyən olunmuş qaydada 1 ay müddətində baxılır.

### Xidmətin həyata keçirilməsində istifadə edilən informasiya sistemləri və ehtiyatları :

Yoxdur

### Xidmətin həyata keçirilməsində istifadə edilən fərdi məlumatların informasiya sistemləri :

Yoxdur

### Xidmətin elektronlaşma səviyyəsi :

Elektronlaşdırılmayıb

### Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi :

Avtomatlaşdırılmayıb

## Şəki Şəhər İcra Hakimiyyəti

| | |
|---|---|
| **Ünvan:** | Az 5500 20 Yanvar küçəsi, 8 |
| **Telefon:** | (024) 244-33-23 |
| **Faks:** | (024) 244-39-94 |
| **E-poçt:** | mail@sheki-ih.gov.az |
| **Rəsmi internet informasiya ehtiyatının ünvanı:** | sheki-ih.gov.az |
| **VÖEN:** | 3000072051 |

| | |
|---|---|
| **Ödəmə rekvizitləri:** | A 1. Emitent (ödəyən) bank<br>Adı: Kapital bank Şəki filialı<br>Kodu: 200703<br>VÖEN: 9900003611<br>Müxbir hesabı: AZ37NABZ01350100000000001944<br>S.Ü.İ.F.T. BİK: AIIBAZ2X<br><br>A 2. Ödəyən müştəri<br>Adı: Şəki Yerli Xəzinədarlıq Orqanı (YXO)<br>Hesab nömrəsi: AZ03AIIB32051019447000201170<br>VÖEN: 3000104011 |
| **İş qrafiki və orqan tərəfindən zəruri hesab edilən digər məlumatlar:** | Bazar ertəsi - Cümə günləri 09:00-18:00 (Nahar fasiləsi 13:00-14:00) |